

# Kamandar Eyvazlı

**Qədim Borçalı torpağında doğulub. Bir sıra kitabların, neçə-neçə maraqlı əsərlərin müəllifidir. Doğma el-obaya qayğıkeş oğul məhəbbəti, vətən istəyi, ailə-ocaq sevgisi, bu sevginin özü qədər saf, səmimi, ilkin duyğular onun şeir və hekayələrinin başlıca mövzusudur...**

## Borçalı

**Həyatda sevdiyim iki vətən var,**
**Onlardan biridi, biri Borçalı.**
**Anamın alnında sonsuz qırışlar,**
**Atamın qəbrinin yeri-Borçalı.**

**Bir yanı arandı, bir yanı yaylaq,**
**Burada özünü sanma heç qonaq,**
**Məclisi məclisdi, yığnağı yığnaq,**
**Ayırmır xeyirdən şəri Borçalı.**

**Orada qoyulub ömrümün himi,**
**Oraya bağlıdır qəlbimin simi,**
**Övladdan nigaran bir ana kimi**
**Boylanır o yandan bəri Borçalı.**

**Dağları arxadı çeşməyə, selə,**
**Bağları məskəndi çiçəyə, gülə,**
**Kamandar öləcək, o isə elə**
**Diridi, hər zaman, diri Borçalı!**

## Biz

Sonradan arxamca boylanıb baxma,
Nə qədər burdayam gəl, görüşək biz.
Bulud tək qaralıb, şimşək tək çaxma,
Bulaq tək qayna, coş, gül, görüşək biz.

İndi bu yerlərdə sərin bir yaydı,
Hər addım önümdə çeşmədi, çaydı,
Bir bu səs sevgidə ən gözəl paydı
Həmdəm olsun çəmən, çöl, görüşək biz.

Kamandar neyləsin bir belə gündə?
Sənsiz ona birdi zülmət də, gün də.
Ötməsin qoy bircə saat da, gün də,
Bu anın qədrini bil, görüşək biz.

## Hələ

*Dağ döşündə neçə nazlı gül açıb,*
*Əriməyib zirvələrdən qar hələ.*
*Gözəllikdən təbiət də dil açıb,*
*Danışmayıb heç nədənsə yar hələ.*

*Əlin yetə- o budağı əyəsən,*
*Qismət ola bu meyvədən yeyəsən,*
*Vaxt ötüşüb, zaman keçib deyəsən,*
*Yetişməyib istədiyin nar hələ.*

*Ay Kamandar, üzdü səni bu səbir,*
*Ürək deyir, ürək vurur, ha təpir.*
*Borçalıda-intizarım üç qəbir,*
*Söykəndiyim ata yurdum var hələ.*



## Gözləyir məni

Yenicə gəlmişəm Kəpənəkçidən,
O dağlar yenə də məni gözləyir.
Suyundan doyunca içəmmədiyim
Bulaqlar yenə də məni gözləyir.

Bu torpaq müqəddəs, bu el mehrli,
Bu ağac kölgəli, bu daş qəhrli.
Yazı da, yayı da sirli-sehrli
Oylaqlar yenə də məni gözləyir.

Gəzdim hər cığırı, gəzdim hər yolu,
Külək sağı vurdu, gün də ki, solu.
Qoynu çiçək dolu, qoynu gül dolu
Yaylaqlar yenə də məni gözləyir.

Söz dedim-gəlini, qızı ağladan,
Dil oldum-baharı, yazı ağladan.
Teli tellləndirən, sazı ağladan
Barmaqlar yenə də məni gözləyir.

Qardaşı şən gördüm, dostu həvəsli,
Qonşunu mehriban, qohumu səsli.
Ana hərarətli, ata nəfəsli
Qucaqlar yenə də məni gözləyir.

Tahirov Əlini məclisdə tanı,
Valehdi, Aydındı söhbəti, canı.
Alimlə, Eldarın oxşarı hanı?
O dostlar yenə də məni gözləyir.

Kamandar, zamana, vaxta nə deyim?
Azalır sevincim, artır gileyim.
Bu kənddə özümə söykək bildiyim
Üç məzar yenə də məni gözləyir.

## Sən qoru

Od aldım, odundan, ocaq da burda,
Su içdim, suyundan, bulaq da burda.
Aran da burdadı, yaylaq da burda,
Ay Allah, sən qoru bu eli dərddən.

Bu eldə ağsaçlı anam yaşayır,
Qopub-ayrıldığım dünyam yaşayır.
Sevib-bəyəndiyim sonam yaşayır,
Ay Allah, sən qoru, bu eli dərddən.

Qışı da gözəldi, yazı da gözəl,
Məclisdə aşığı, sazı da gözəl.
Gözəldi, gözəlin nazı da gözəl,
Ay Allah, sən qoru, bu eli dərddən.

Hər cığır xatirə, hər yol xatirə,
Hər budaq xatirə, hər qol xatirə,
Hər addım, hər yerdə bol-bol xatirə,
Ay Allah, sən qoru, bu eli dərddən.

Mənim bu dünyaya gəldiyim yerdi,
Özümü tanıyıb bildiyim yerdi.
Sevinib, şadlanıb güldüyüm yerdi,
Ay Allah, sən qoru, bu eli dərddən.

Ağzımın ləzzəti, dadı Borçalı,
Könlümün ocağı, odu Borçalı.
Kamandar, görünür odu, Borçalı,
Ay Allah, sən qoru, bu eli dərddən

## Torpaq

Bəzən çox şirindi bu dünya qədər,
Bəzən də zəhərdi, acıdı torpaq.
Birinə həsrətdən qüssə gətirər,
Birinin şöhrəti, tacıdı torpaq.

Əkirik hərdən dən, dənədən ötrü,
Bar verir hər dənə dən nədən ötrü?
Atadan, əmidən, nənədən ötrü,
Yanan ürəyimin sacıdı torpaq.

Kamandar, adam var eldən uzaqdı,
Səninsə qəlbində çaydı, bulaqdı.
Mənə ana deyil, anam ki, sağdı,
Dayıdı, xaladı, bacıdı torpaq.

## Daha

**Bizim qazanmalı vaxtımız deyil**
**İtirə-itirə gedirik daha.**
**Ayları, illəri boşu-boşuna**
**Ötürə-ötürə gedirik daha.**

**Cavanlıq eşqinə düşəndən bəri**
**Gəlib yaşımızın kövrək günləri.**
**Zərif çiynimizlə ağır yükləri**
**Götürə-götürə gedirik daha.**

**Nə xəstə kimiyik, nə də sağ kimi,**
**Əriyir ömrümüz şam-çıraq kimi.**
**Qəbir daşlarını bağça-bağ kimi**
**Bitirə-bitirə gedirik daha.**

**İndi çağrılırıq böyük yerinə,**
**Elin xeyirinə, elin şərinə**
**Gündə bir xəbəri biri-birinə**
**Yetirə-yetirə gedirik daha.**

**Tale sındırmasın qoy Kamandarı,**
**Onsuz da bölünüb qalmışıq yarı.**
**Zil qara saçlara ağappaq qarı**
**Gətirə-gətirə gedirik daha.**

## Mən öz ömrümü yaşamamışam

Bilmədim qədrini ötən illərin,
Ay ötdü, il ötdü, bu yaşa gəldim.
Ayrılıb qoynundan xoşbəxt günlərin,
Yolları dolaşa-dolaşa gəldim.
Eləki, çən keçdi,
duman çəkildi,
Gördüm ki, tənhayam, təkcə qalmışam.
Mən onda anladım, mən onda bildim:
Demək, öz ömrümü yaşamamışam,
Demək, öz yükümü daşımamışam.

Qohumun, qonşunun, dostun, yoldaşın,
Qəlbində nə qədər nisgil yığını...
Gör neçə yaxının, neçə sirdaşın
Çəkmişəm dağ boyda ağırlığını!
Qarşımda eniş də,
yoxuş da olub,
Hərdən büdrəsəm də, yıxılmamışam,
Məni fikir yorub, məni dərd yorub:
Demək, öz ömrümü yaşamamışam,
Demək, öz yükümü daşımamışam.

Xətrini istəyib doğma sandığım,
Hərdən xəyanət də edibdi mənə,
Neçə il evində qonaq qaldığım
Doğru çıxmayıbdı bəzən sözünə
Yalan baş qaldırıb,
ayaq açanda
Bilsəm ki, susmuşam, danışmamışam,
Bax həmin zamanda, bax həmin anda,
Demək, öz ömrümü yaşamamışam,
Demək, öz yükümü daşımamışam.

Ötəri işlərə qarışdıb başım,
Heç nə azaltmadı ağrı-acımı.
Bir ayda üç dəfə axdı göz yaşım:
İtirdim həyatda bircə bacımı.
Dayım da, xalam da
Yoldaşdı ona
Hər qəbir yanında çox ağlamışam,
Həsrətin odunda mən yana-yana
Demək, öz ömrümü yaşamamışam,
Demək, öz yükümü daşımamışam.

Arxaya baxanda nələrə heyif!
Nələr də yaşayır xatirələrdə.
Ötən hər axşama, səhərə heyif-
Göynədir qəlbimi xatirələr də...
Yaşım qırx yeddiyə
gəlib çatdı ki!
Ata,- deyə-deyə lap qocalmışam,
Bu dünya başımı elə qatdı ki...
Demək, öz ömrümü yaşamamışam,
Demək, öz yükümü daşımamışam.

